# Bakıda qərb küləyi...

**Ötən ay Bakının musiqi həyatında gündəm olmuş 1-ci Bakı Müasir Musiqi Günləri Festivalı baş tutdu. Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyinin dəstəyi, "Cadenza" orkestrinin birbaşa iştirakı və təşkilatçılığı ilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Beynəlxalq Muğam Mərkəzi, Muzey Mərkəzində konsertlər keçirildi, həmçinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ustad dərsləri, seminar və mühazirələr vaqe oldu. Paytaxtımıza təşrif buyurmuş əcnəbi musiqiçilər yerli sənətçilərimizlə əməkdaşlıq edərək sənət mübadiləsi aparır, öz əsərlərini nümayiş etdirir, eyni zamanda təcrübələrini yerli auditoriya ilə paylaşırdılar. Festivalın hər günü biri bəstəkar, digəri ifaçı olmaqla iki ustad dərsi (bəzən mühazirə) ilə başlanır, "Portretlər" adlı konsert proqramı ilə davam edir və axşam konserti ilə yekunlaşırdı.**





İlk dörd gün ərzində bəstəkarlar - Daniel Weissberg, Aleksandr Xubeyev, ifaçılar - Yulia Miqunova, Qleb Xoxlov, Avital Cohen, Fidan Ağayeva-Edler, Andrey Jurgenssohn, Szilard Benes gündüzlər mühazirə və ustad dərsləri ilə çıxışlar edir, axşam saatlarında isə eyni ifaçılar və onlarla yanaşı Rəna Fərhadova, Fatimə Nəsirli, Ərol Rzayev, Ümid Mustafazadə, Rəna Rəhimova, Zakir Əsədov, Nadir Eyvazov, Kamil Hüseynzadə, Mahir Tağızadə konsert salonlarında XX-XXI əsr Qərb və Azərbaycan musiqisini ifa edirdilər. Konsertlərin dirijoru Orxan Həşimov idi. Festivalın beşinci günündə ADMİU-da Elmi seminar təşkil edildi. Həmin günün axşamı Nizami Kino Mərkəzində "Ligeti: Portret" adlı filmin nümayişi festivalı yekunlaşdırdı.

İlk öncə onu qeyd edim ki, festivalın proqram quruluşu düşünülmüş və səliqəli idi. Belə ki, konsertdə iştirak edən ifaçı və bəstəkarlarla biz növbəti gün görüşə bilir, onların mülahizələrini dinləyir, suallar verə bilir, onlarla daha sıx təmasda olurduq. Buna misal fleyta ifaçısı Avital Cohenin Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi ilə keçirdiyi ustad dərsi ola bilər. Yetərincə qısa çəkən ustad dərsində xanım Cohenin verdiyi yığcam, konkret qeydlər və sadə, anlaşıqlı izahlar nəticəsində biz tələbənin ifasının nə qədər irəlilədiyinin şahidi olduq. Verə biləcəyim bir digər nümunə isə Daniel Weissberg ilə görüş oldu ki, bəstəkarla həmsöhbət olmaq imkanı, fikirlərini almaq üçün fürsət yarandı.

"Müasir musiqi" anlayışı Avropa musiqişünaslığında onun sadəcə zaman baxımından çağdaşlığı, günümüzdə yazılması anlamına gəlmir. Müasir musiqi bir cərəyan olaraq özündə avanqard, postmodern üslublu əsərləri birləşdirir. Eyni anlayış incə sənətin demək olar ki, bütün sahələri üçün keçərlidir. Buradan yola çıxaraq söyləməliyəm ki, müasir musiqinin ifası musiqiçi qarşısında fərqli tələblər qoyur. Solist əsərin emosional yükünü yalnız musiqi duyumu üzərindən deyil, bir aktyor olaraq həm də zahiri görüntüsü, qeyri-adiliyi, səhnəni bir teatr məkanına çevirmək məharəti vasitəsi ilə həyata keçirməlidir. O buna məhkumdur. Misal olaraq festivalın ikinci günü baş tutmuş "Portretlər" silsiləsindən olan konsertdə Avital Cohenin elə özü tərəfindən fleyta, polietilen paketi, elektron vasitələr üçün yazılmış "Air Notes" ("Havalı notlar" - tərc. Leyla H.Ə.X.) performansı ilə çıxış edərkən gözlənilmədən auditoriyanın arxasında peyda olaraq çiyinlərində polietilen "əba" ədalı addımlarla səhnəyə yönəlməsini göstərmək istərdim. Performansın təsirini artıran xüsusiyyətlərdən biri də musiqiçinin səhnədə deyil, səhnə ilə auditoriya arasındakı qaranlıq boşluqda dayanması və bir kölgə olaraq çıxış etməsi idi. Avital Cohen və Türkər Qasımzadənin birgə yaratdıqları "Pain(T)" ("Ağrı" - tərc. Leyla H.Ə.X) adlı digər bir nümunədə isə səhnədə yerləşdirilmiş böyük ekranda Richard Schmitz adlı müəllifin qısa kino kadrları təkrar-təkrar nümayiş olunurdu və burada xanım Cohen musiqini sanki ekranda baş verənləri müşayiət etmək üçün ifa edirdi. Tədbirlər arası müzakirələr zamanı əsərləri ilə festivalın qonağı olan İsveçrəli bəstəkar Da-



niel Weissberg ilə söhbət edərkən bu mövzu ilə bağlı verdiyim "Müasir musiqinin digər sənət növləri ilə sintez olunmaq ehtiyacı haradan doğur?" sualına o belə cavab vermişdi: "Mən çoxlu teatr musiqisi yazmışam, mənə tez-tez deyirlər ki, əsərlərimə teatral elementlər əlavə edirəm. Əslində, bu mənim üçün təbii bir prosesdir. Mən bunu düşünüklü deyil, musiqini belə duyduğum üçün edirəm. Mən musiqini sadəcə eşitmir, onu həm də görürəm." Bəstəkar özü də qeyd edir ki, bu cür teatral effektlər əsərin təsir gücünü artırır. Solist yalnız ifaçı olmaqdan çıxaraq bir aktyora dönüşür. Odur ki, fikrimcə, yuxarıda sadaladığımız çıxışları performans adlandırmaq yerinə düşərdi. Təsadüfi deyil ki, performansı bir incə sənət növü kimi gündəmə gətirən John Cage məhz bəstəkardır... O özünün 4'33'' göstərisində royal qarşısında əyləşərək bir səs belə götürmür və saygacın dörd dəqiqə otuz üç saniyəni doldurması ilə əsəri bitirir. Performans janrı belə yaranır. Təbii ki, bunun üzərində fəlsəfə qurmaq olar və ehtimal ki, quranlar olub və olacaq.

Festivalda təqdim olunmuş bir çox əsərin hər birinin öz fəlsəfəsi, hekayəsi vardı və "Cadenza" orkestrinin əməkdaşı, festival boyu tədbirlərə aparıcılıq edən musiqişünas Şəfaqət Məmmədova bu hekayələri dinləyicilərin nəzərinə çatdırırdı. Fikrimcə, əsərlərdən öncə onların hekayələrindən bəhs etmək dinləyicini bir növ musiqini "anlamağa" sövq etmək məqsədi daşıyırdı. Etiraf etməliyəm ki, əsərlər zaman-zaman arxalarında duran hekayələri təmsil etmirdi. Səhv etmirəmsə, Abu Nəsr Al-Farabi'dən oxumuşdum: "Musiqi ya Allaha, ya da cəmiyyətə yönəlməlidir." Necə də aydınladıcı düşüncədir ki, bizi maraqlı bir fikrə gətirib çıxarır. Postmodern musiqi nə Allaha, nə də cəmiyyətə yönəlik musiqidir. Bu musiqi sanki yalnız bəstəkarın içinə, daxilinə yönəlmiş, onun xəyallarında yaşamaqdadır. Əksər bəstəkarların əsərlərində imtina etdikləri standart forma anlayışı, əvəzində bir kətan üzərində təsvir edər kimi sıx-sıx istifadə etdikləri musiqi "ləkələri", ani düşüncə və təəssüratları ifadə edə biləcək qısa intonasiyalar bunun göstəriciləri ola bilər. Müəlliflər öz xəyallarında bir hal, bir obraz qurur, onun xaricə necə ifadə edəcəkləri qayğısını isə, zənnimcə, çox da çəkmir. Burada qəlibləşmiş musiqi qanunları da bir o qədər işləmir, elə buna görədir ki, bu tərz musiqini dinləmək bəzən gücdür. Bəlkə də bu səbəbdən festivalda səslənən "Cryptocalypse" nömrəsinin müəllifi Aleksandr Xubeyev qeyd etmiş ki, yazdığı musiqi dinlənilməməlidir. "Musiqi dinlənilməməli?!" sualını verdiyinizi bilirəm. Əslində müasir sənət cəmiyyətlə oynayır, orijinallıq və kreativlik yarışındadır... Mən məhz kreativlik yazıram. Hərçənd ki, bu kəlmənin türkcəmizdə qarşılığı möhtərəm oxucuya məlumdur, fəqət mən iddia edirəm ki, qərb təfəkkürünün günümüz etibarilə yaratdığı "kreativ insan" kultu heç də insanı yarandığından bəri yaşadan və Allahdan bir ərməğan olan yaradıcılıq qavramı ilə bərabər tutulmamalıdır. Yaradıcılıq uzun sürəcdir, kreativlik isə insandan tez zamanda orijinal ideyalar və onu həyata keçirmək bacarığı tələb edir. O ideyalar ki, diqqət çəkəcək və baha satılacaq...

*(Ardı var)*

**Leyla Həmid Əhməd Xan**